ədalət.- 2021.- 1 iyun.- S.7.

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 56 (2237) 1 iyun 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qəhrəman Tərtəri gözləyən sabah

**Otuz illik müharibə tariximiz təkcə özümüzü yenidən tanımağa deyil, həm də cəbhəyanı bölgələrimizin durumunu, onun təbii coğrafi resurslarının yenidən tanımağa, yenidən öyrənməyə səbəb oldu. Bir faktı vurğulamaq yerinə düşər ki, bu müharibədə Tərtər rayonu ”Azərbaycanın Stalinqradı” adını qazandırdı. Təbii ki, bu da Tərtər rayon sakinlərinin, bütövlükdə bu bölgədə yaşayanların dəyanətini, torpağa bağlılığını, xüsusilə düşmənə qarşı olan böyük qəzəblərini, həm də onların cəsarətini nümayiş etdirdi. Hər kəs gördü ki, tərtərlilər öz kəndləri, öz əkin-biçin sahələri, öz yurd-yuvaları üçün necə vuruşur, necə döyüşür. Bu isə bütöv bir müharibə salnaməsinin yalnız bir hissəsidir. Deməli, Azərbaycanın ərazi inzibati vahidi olan Tərtər rayonu bütövlükdə düşmənlə üz-üzə həm vuruşdu, həm yaşadı, həm də yaratdı.**









Tərtər rayonu Sovet dönəmində Mirbəşir adı ilə tanınsa da, 1991-ci ilin fevralında ona öz qədim adı qaytarıldı. Bu tarixi ədalətin bərpası təkcə ideoloji məsələ deyildi, bu həm də Azərbaycan tarixinin yeni baxışı idi. Deməli, coğrafi baxımdan keçmiş muxtar vilayətlə həmsərhəd olan Tərtər rayonu həm dağlıq, həm də Aran torpaqları ilə diqqəti çəkir. Yəni, buranın relyefi elədir ki, dağlıq, düzənlik, dağətəyi sahələr bir-birini tamamlayır. Rayonda məhz həmin o dağlıq hissələrdən axıb gələn çayların gətirdiyi bol suların hesabına əkinçilik zaman-zaman inkişaf etdirilibdi. Ümumiyyətlə kənd təsərrüfatı rayonu olan Tərtərdə həm əkinçilik, həm heyvandarlıq, həm də bostan-tərəvəz məhsullarının istehsalına hər zaman diqqət göstərilib. Bu gün də həmin proses davam etdirilir. Ərazi baxımından Ağdam, Bərdə kimi rayonlarla həmsərhəd olan Tərtərdə həyatın inkişaf səviyyəsi də demək olar ki, son illərdə xeyli dəyişibdi. Əgər gözümüzün önünə ötən əsrin 80-90-cı illərini gətirsək, onda görərik ki, həmin zaman kəsiyində respublikamızın bir çox bölgələri kimi, Tərtərdə də daha çox əkin-biçinə, heyvandarlığın inkişafına diqqət yetirilib. Doğrudur, rayonun mərkəzində və daha böyük yaşayış məntəqələrində sosial obyektlər mövcud idi, amma bütün bunlar nə zamanın tələbinə cavab vermirdi, nə də rayonun görünüşünü qabartmırdı, diqqətə təqdim etmirdi. Tərtər daha çox bir kənd rayonu olaraq öz missiyasını yerinə yetirirdi. Lakin torpaqlarımızın işğalı və Qarabağ savaşının başlanması Tərtərdə proseslərin gedişinə çox ciddi təsitr göstərdi. Belə ki, Qarabağın erməni sakinləri indi yaşadığı həmsərhəd kəndlərdə vəziyyət demək olar ki, kökündən dəyişdi. Hər bir edilən həmlələr, atılan top və qrat mərmiləri bu kəndlərdə həyatı demək olar ki, iflic etmişdi. Adamlar öz təsərüfatlarında gecə işləməyə məcbur olmuşlar. Hətta suvarma işləri ilə bağlı ermənilərin yaratdığı problem torpaqların boş qalmasına səbəb olmuşdu. Bu da öz növbəsində rayonun iqtisadi büdcəsinə və əhalinin bazar zənbilinə çox ciddi təsir göstərmişdi.

Zəfərlə nəticələnən müharibəmizin nəticələrinin aradan qaldırıldığı indiki zamanda Tərtərdə böyük işlərə start verildi. Azərbaycan prezidenti cənab İlham Əliyevin imzaladığı ”Regionların İnkişafına Dair Dövlət Proqramı”na uyğun olaraq digər ərazilərdə olduğu kimi Tərtərdə də planlı şəkildə quruculuq abadlıq işlərinə başlanmışdı. İlk öncə əhalinin su təminatı məsələsi aradan qaldırılmağa başlanıb. Ona görə də bu il Tərtərdə əkin altındakı torpaqların ərazisi daha böyükdür. Bu da o deməkdir ki, həm Tərtərin özündə, həm ölkənin bazarlarında Tərtər məhsullarının çeşidi və həcmi daha çox, daha böyük olacaqdır. Suvarma məsələlərinin həlli ilə yanaşı, rayonda dağıdılmış yolların bərpası və bir qisminin isə yenidən çəkilməsi istiqamətində planlı işlər aparılır. Ağır döyüşlərin getdiyi Tərtər ərazisində yol strukturuna köklü ziyan dəymişdir. Məhz aidiyyatı qurumların apardığı hesablamalara uyğun olaraq yekunda Tərtərdə daha müasir yolların çəkilməsi, mövcud işə yarayan yolların tam təmir edilməsi istiqamətində demək olar ki, kompleks işlər görülür.

Tərtər rayon icra hakimiyyəti başçısının rəhbərliyi altında fəaliyyət göstərən xüsusi şuranın bilavasitə məsələlərə müdaxiləsi, zamanında ortaya çıxan problemlərin aradan qaldırılmasına dəstək verilməsi görülən işin sürətinə mane olmur, əksinə əlavə təkan verir. Bu da o deməkdir ki, hal-hazırda Tərtərdə küçə və yolların abadlaşdırılması, səkilərin yenidən qurulması sakinlərin ürəyincədir.

Tərtər rayonunda taxılçılığın, meyvə istehsalının, eləcə də digər məhsulların həm çeşidinin, həm də kəmiyyətinin artırılması istiqamətində planlı işlər görülür. Münbit torpağın malik olduğu bu rayonda sovet dönəmində olduğu kimi üzümçülük sahəsinə də diqqət yetirilir, pambıqçılıq inkişaf etdirilir. Rayon ərazisində pandemiya dövrünün tələblərinə uyğun olaraq əmək fəaliyyəti nizamlanır ki, bu da insanların yoluxma ehtimalını xeyli aşağı salır. Adamlar daha çox kənd təsərrüfatı ilə məşğul olduqlarından onların zəruri qoruyucu vasitələrdən istifadəsi, dezinfeksiya işləri də nəzərdən qaçırılmır. Elə bu səbəbdəndir ki, rayonda virusla mübarizə sahəsində görülən planlı işlər daha uğurludur.




Bu gün Tərtər rayonu daha çox Suqovuşan və Talış kəndlərinin işğaldan azad edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Çünki Suqovuşan və Talış həm strateji obyekt, həm də sakinlərin su və elektrik təchizatı baxımından daha çox ehtiyac duyduğu nöqtələr idi. Deməli, Suqovuşan azad edilməsi ilə böyük bir ərazinin suvarma problemi də aradan qaldırılmışdı. Bütün bu söylənilərlə yanaşı, Tərtər rayonu mövcud tarixi memarlıq abidələri hər zaman diqqətçəkən olubdu.

**Yaşı ötən əsrlərə gedib çıxan bu abidələrin hər biri göstərir ki, rayon insanların daha çox məskunlaşdığı, sığındığı ərazilərdən olub. Məhz bunu nəzərə alaraq bu gün Tərtəri bir qəhrəman şəhər kimi köklü şəkildə yenidən tikib, qurub abadlaşdırmaq və onu həm layiq olduğu, həm də tələb olunan müasir yaşayış məskənləri sırasına çıxarmaq lazımdı. Bunun üçün ölkə prezidentinin diqqət və qayğısından yararlanmaq aidiyyatı qurumların əsas vəzifəsi olmalıdır. Onu da qeyd etmək lazımdır ki, Tərtərdə həm kənd təsərrüfatı, həm də sənaye sahələrinin inkişaf etdirilməsi üçün proqramlı şəkildə fəaliyyət göstərilməlidir. Bu da öz növbəsində Azərbaycanımızın şöhrətinin və gözəlliyinin artırılmasına verilən töhfə olar.**

***Əbülfət Mədətoğlu***

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN
MALİYYƏ YARDIMI İLƏ